# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 03

Bakı şəhəri "12" Fevral 2016 il

**Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyinin yaradılması haqqında**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 4.4-cü bəndini rəhbər tutaraq və Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2016-cı il 11 fevral tarixli 02 nömrəli əmrinin 3.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının sədrinin təqdim etdiyi təklifləri nəzərə alaraq

**Əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyi aşağıdakı tərkibdə yaradılsın:

| | |
|---|---|
| Nürəngiz Fərəcullayeva | - Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin aparıcı məsləhətçisi, rəhbər |
| Xatirəxanım Abasova | - Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin məsləhətçisi, üzv |

2. Apellyasiya Şurasının Katibliyinin rəhbəri sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı təkrar şikayətlərinə Apellyasiya Şurasında baxılması prosesinə başlanması ilə bağlı təşkilatı-hazılıq tədbirləri 5 gün müddət ərzində həyata keçirsin.

3. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətini Apellyasiya Şurasının Katibliyinin üzvlərinə çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir Natiq Əliyev